

# Göyərçin

№ 2. 1999

ISSN-0207-4710

# SEHRLİ ÇİÇƏK

*ALMAN NAĞILI*

Dağların ətəyində yerləşən bir kənddə ans adlı bir odunçu yaşayırdı. Bir dəfə o, eşədə xeyli işləyib yoruldu. Çəməndə əy-şdi ki, bir qədər dincəlsin. Birdən onun özünə mavi rəngli bir çiçək sataşdı. Hans u çiçəyi dərdi və çox sevindi:

- Bu çiçək "Unutma məni" adlı çiçəkdir. ocalar deyirlər ki, bu çiçəyi lazımi vaxtda ayalara vursan, xəzinəyə tuş gələrsən. əlkə mən də öz bəxtimi sınayım?

Hans çiçəyi daşa toxunduran kimi onun arşısında bir mağara açıldı. O, mağaraya irdi. Hər tərəf ləl-cəvahiratla dolu idi. Qiy-ətli daşların işığından göz qamaşırdı.

Hans öz-özünə düşündü:

- Mənim kasıblığım sona yetdi. Kaş bu əzinədəkilərin hamısı mənim olaydı.

Elə bu zaman qeybdən bir səs gəldi:

- Qorxma, nə qədər istəyirsənsə götür. Sən bu çiçəyin sahibisən. Deməli bu xəzinə də sənindir. Ancaq ən qiymətli incini götürməyi unutma.

- Unutmaram, - deyə oğlan qoynunu-qoltuğunu, ciblərini doldurmağa başladı.

Yenə qeybdən səs gəldi:

- Ən əsas incini unutma ha.

Hans qiymətli daş-qaşları götürüb mağaradan çıxdı. Birdən yadına düşdü ki, çiçəyi götürməyi unudub. O, geri qayıtmaq istədi, ancaq mağaranın qapısı daşla örtüldü.

Hans ən qiymətli incini - sehrli çiçəyi unutduğu üçün hər şeyi itirdi. Götürdüyü qiymətli daşların, qızılların hamısı zir-zibilə çevrildi.

Tərcümə edəni:
*R. ƏLİYEV*

